# HAMLET İSAXANLI: YARADICILIQ EHTİRASI SEVGİDƏN QAT-QAT BÖYÜKDÜ

***Müsahibə qısaldılmış variantda bu ilin fevral ayında Xeber365.com saytında və jurnalımızda dərc olunmuşdur. Tam mətnini təqdim edirik.***



*Müsahibimiz Xəzər Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlıdır.*

*Hamlet müəllim rəhbərlik elədiyi təhsil müəssisəsi, Azərbaycanda elm və mədəniyyətin hazırkı vəziyyəti və dünyanın gündəmində olan aktual mövzularla bağlı suallarımızı cavablandırır.*

**- Hamlet müəllim, Xəzər Universiteti Azərbaycan müstəqilliyini elan etdikdən qısa müddət sonra fəaliyyətə başlayan bir neçə özəl universitetlərdən biridir. Bu müddət ərzində nəinki rəqiblərini geridə qoyub, həm də günü - gündən böyüyür: "Dünya" məktəbi, kitabxana...**

- Xəzər Universiteti 1990-cı ilin son ayı ilə 1991-ci il martın 18-i arasında Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Sovetinin iki qərarı (20 dekabr 1990 və 18 mart 1991) ilə doğulub, Azərbayan isə müstəqilliyini 18 oktyabr 1991-ci ildə elan etmişdir, yəni Xəzər Universiteti müstəqillikdən əvvəl yaranıb, sonra deyil; birinci qərardan 10 ay, ikinci-sonuncu qərardan 7 ay keçmişdi ki, Azərbaycanımız müstəqil dövlət oldu.

Növbəti təsis olunanlar Azərbaycan və Qərb universitetləri idi, Qafqaz və digər özəl ali məktəblər isə sonra, bəziləri xeyli sonra yarandılar.

Yeni Kampus tikdik, istifadəyə verdik.

Gözəl idman mərkəzi var, şənbə günləri gəlib voleybol oynayırıq. Orda olmusunuzmu?

**- Yox, amma kadrları gördüm. Doğrusu, kitabxananın dizaynına valeh oldum. Başqa nələr var və nələr olacaq?**

- Universitetin böyüməsi həm də elmi-yaradıcı gücünün artması və maddi bazasının genişlənməsi deməkdir. Bizim hazırda yeddi binamız var:

ikisi burda - indi olduğumuz yerdə (yəni Neftçilər metrosu yaxınlığında), biri - şəhər mərkəzində (Bəşir Səfəroğlu 122-də). Dörd bina da yeni - Binəqədi kampusumuzda yer aldı: biri səkkiz, biri altı, biri də dörd mərtəbəli olmaqla üç bina əsasən tədris üçün nəzərdə tutulub, orada həmçinin müxtəlif laboratoriyalar və konsert-konfrans salonumuz var. İdman kompleksimiz dördüncü - ayrıca bir binadır. Orda üzgüçülük hovuzu, voleybol və basketbol meydanı, güləş və digər döyüş növləri üçün salonlar yerləşmişdir.

Yeni tikilən binalardan biri əsasən uşaq bağçası üçündür, ikincisi əsasən ibtidai, üçüncüsü isə əsasən orta məktəb üçün nəzərdə tutulmuşdur. Laboratoriyalarla yanaşı texnopark - fəaliyyətimizin mühüm hissəsi də bu yeni kampusla bağlıdır. Əcnəbi müəllimlərimizin yaşaması üçün də yer düzəltmişik. İlk baxışda universitetimizin funksional fəaliyyəti üçün bütün şərtlər var - belə demək mümkündür. Amma bunlarla kifayətlənmirik, daha da genişlənmək istəyirik. Əgər bizim toplantılarımızda iştirak etsəniz, yalnız narazılıq eşidərsiniz. Çünki keyfiyyətli nəticə əldə etməyin yollarından biri gözə görünən nöqsanların aradan qaldırılmasından keçir.

**- Mətbuat konfransında universitetin maddi təminatından və büdcəsindən danışanda dediniz ki, nə vaxtsa imkanlı insanların da təhsil sahəsinə diqqət yönəldəcəyinə ümid edirsiniz. Azərbaycanda belə insanlar heçmi yoxdu, ya bəlkə nəsə onlara mane olur?**

- Azərbaycanda imkanlı insanlar var və onlar qətiyyən insafsız deyillər. Sadəcə, qanunlar və mühit insanların xeyriyyəçilik etmələrini nəinki həvəsləndirməmiş, əksinə mane olmuşdur. "Bu pulu hardan alıbsan?" kimi suallar və qorxular olmuş və olmaqdadır. Vəziyyət, düşünürəm ki, dəyişəcək. Artıq bizim müəyyən işlərimizə kömək edirlər. Bizə böyük məbləğlər verməsələr də, məsələn, biz tikinti aparanda deyirik ki, "tikintinin filan yerində köməyə ehtiyacımız var" və kömək edənlər olur (mane olanlarla yanaşı); "sizdən qazanmayacam, sadəcə işçilərimin maaşını verin" deyənlər olur.

**- Dünyanın başqa yerlərində bu tip fəaliyyətlər qanunla tənzimlənir, xeyriyyəçilər vergilərdən azad olunur...**

- Doğrudur, bu, yəqin ki, bizdə də olacaq. Hal-hazırda xeyriyyəçiliyin mexanizmi haqqında təkliflər var. Bu təkliflər, yəqin ki, Milli Məclisdə müzakirə olunacaq. Dünyada sadə və aydın qanunlar var - insanlar və şirkətlər öz vergi güzəştləri hesabına universitetlərə yardım edə bilsinlər. Bu yaxınlarda Diplomatiya Akademiyasının (ADA Universitetinin) rektoru ilə bu məsələni müzakirə etmişik ki, necə olsa yaxşı olar? Bir insan açıq - aşkar gəlib desin ki, universitetə, məsələn, bir milyon verirəm. Bu halda həmin bir milyonun universitetdə necə istifadə olunması dəqiq bilinməlidir. Əks halda, uyğun qanunvericilik olmasa, o zaman çirkli pulların yuyulması prosesi gedə bilər. Məsələn, bir zəngin adam gəlib deyəcək ki, "mən sənə, yəni sənin başçılıq etdiyin universitetə bir milyon pul vermək istəyirəm". Sən, təbii ki, sevinəcək və təşəkkür edəcəksən. Amma... işin bir əmması varmış, həmin şəxs davam edəcək: "sənə bir milyon verəcəm. Sən bir milyon aldığın haqqında mənə bir sənəd verəcəksən və... pulun üstündən yüz min götürüb, qalanını mənə qaytaracaqsan". Gördünmü? Buna görə bu işləri tənzimləyə bilən qanunlar olmalıdır ki, belə sövdələşmələr keçməsin.

Mən nikbinəm. İslahat düşüncəli insanlar həmişə dəyişmə arzusundadırlar, "bu şey niyə olmadı, o şey niyə olmadı?" deyirlər, tələsirlər, nəticəni görməyə, hər şeyi tez irəli dartmağa çalışırlar. Dəyişmə olmasa, onların irəliləmə sürəti aşağı düşür; düz yolda qaçış əvəzi-

nə çoxsaylı və çoxçeşidli maneələri dəf etməklə qaçış arasındakı fərqi bilirsiniz... Dövlət isə həmişə sabitlik istəyir. Dövlətdə bir mühafizəkarlıq var (bu, sabitliyi təmin edir): "dayanın görək bir nə var, dağıtmayın buraları". Biz bəzi ölkələrdən, məsələn Gürcüstandan sanki daha mühafizəkarıq. Amma bütün bunlarla bərabər gözümüzün qabağında nələrsə baş verir, yaxşı işlər olur. Məsələn, mən həmişə deyirdim (və yazırdım!) ki, "pulu ali məktəblərə deyil, həmin ali məktəbə qəbul olunmuş və orada oxuyan tələbələrə verin, yəni adambaşı maliyyələşdirməyə keçin". Və nə oldu? Həmin şey həyata keçdi! Xəzər Universitetində hər hansı ixtisas üzrə oxumaq istəyən gəlib pulsuz oxuya bilir. Sadəcə, gedib yaxşı imtahan ver və gəl, dövlət sənin təhsil haqqını və təqaüd pulunu verir! Düzdür, dövlət bizim istədiyimizdən, yəni qəbul olunmuş təhsil haqqından az pul verir, amma biz ona gedirik. Çünki bizə çox yaxşı tələbələr gəlməsini istəyirik. Yaxşı tələbə dövlətə müraciət etməmiş gələndə biz özümüz təhsil haqqında ona güzəşt edirik. Beləliklə, dövlət uğurla imtahan verən və müsabiqədən keçən tələbənin təhsil haqqını verir. Dövlət bunu edir!

Dövlət əlavə dəyər vergisini götürdü universitetlərdən. Biz buna görə çox çalışdıq, yazdıq, əlləşdik, vuruşduq və dövlət bizim istədiyimiz qərarı qəbul etdi. Yəni, nə qədər tənqid etsək də, narazı qalsaq da, dövlət müəyyən yaxşı addımlar atır. Düzdür, dövlət bizim gözlədiyimizdən yavaş gedir, belə demək mümkünsə. Daha bir misal. Mən müraciət etmişəm ki, dövlət bizə 50 hektar yer versin, biz orada universitet kampüsü tikək. Mən orada neynəyəcəm? Düzdür, pulumuz yoxdur. Amma bizim bir inamımız var və biz yaxşı bir şey etmək istəyəndə adətən onu edirik. Mühüm bir şey də var - bizim kampus qurmaq planımız var! İndi cavab gözləyirik. Çox yavaş gedir proses. Amma, ümid edirəm ki, nələrsə olacaq.

Son vaxtlar daha yeni bir yaxşı imkan yaranıb - dövlət müəyyən layihələrin həyata keçirilməsi üçün qrantlar verməyə başlayıb. Məsələn, bizim Təhsil fakültəmiz və Təhsil Siyasəti İnstitutumuz Azərbaycanın müxtəlif şəhər və rayonlarında çalışan müəllimlərə cürbəcür məsələlər üzrə təlim keçir. Müəllimlərlə yanaşı, hal-hazırda Xəzər Universitetində 90 məktəb direktoru və direktor olmaq istəyənlərə təhsilin idarə olunması mövzusunda üç aylıq təlim veririk və bu xərcləri dövlət, bu halda təhsil nazirliyi ödəyir.

**- Düzü, mətbuat konfransının mövzusu mənə bir az qəribə gəldi. Siz artıq dunya universitetlərinin reytinq cədvəllərində yeri olan müəssisəsiniz. Yerli mətbuatın bir rəqəm yuxarı, bir rəqəm aşağı yazmağı sizə niyə təsir edib?**

- Çox elə pis təsir etmir... Press - relizi mən yazmamışam. Amma, bütün bunlarla yanaşı məlumatın doğru-düzgün olması lazımdır. Yanlış məlumat insanları çaşdıra bilir. Yanlış məlumat bəzən o məlumatı anlamamaqdan, bəzən də qəsdən verilə bilir. Hər şey doğru olsa, olduğu kimi olsa, daha yaxşı deyilmi? Xalq dürüst məlumat almalıdır. Məsələn, sabah ola bilər biz o reytinq cədvəlindən 1-2 illik çıxaq, yəni kənarda qalaq. Axı reytinq dünya universitetlərinin yarışını əks etdirir, orada böyük rəqabət var, sabah bir güclü irəli çıxıb bizi keçə bilər, yəni biz geri düşə bilərik. Olsun, qoy necədirsə, o cür yazılsın, o cür məlumat verilsin. Yarışda dürüstlük və dəqiqlik mühümdür...

**- Təxminən iki, ya da üç il əvvəl sizinlə bir layihə çərçivəsində söhbət etmişdik. O zaman Azərbaycan dilinə qarşı laqeyd münasibətdən şikayətlənmişdiniz. Deyəsən, təhsil komissiyasına "Azərbaycan və dünya dillərinin inkişafı" adlı layihə təklif etdiyinizi demişdiniz. Necə oldu o layihə?**

- Bu belədir, doğrudur. Sizi nəticə maraqlandırırsa, heç nə olmadı, deyə bilərəm. O vaxt rus dilinin təhlükə altında olduğu iddia edilərək, bir toplantı keçirilmişdi, orada rus dilinin inkişaf proqramını hazırlamaq təklif edilmişdi. Mən məsələni bir qədər dəyişdirmək, genişləndirmək, onu Azərbaycan dilinin və xarici dillərin inkişaf proqramı kimi müzakirə etməyi təklif etmişdim. Məsələ bu şəkil aldıqdan sonra heç bir qərar qəbul edilmədi, yəni hər şey həmişəki kimi qaldı. Amma, mən indi də dönə-dönə təkrar edirəm: Azərbaycan dilinin qayğısına qalmalıyıq, buna çox ehtiyac var.

Baxın, şəhər boyu gəzirsən, bir çox təşkilatların, binaların, mərkəzlərin adları ingiliscə yazılır, hələ bəzən də Türkiyə türkcəsində. Bir çox mədəniyyət, məişət ocaqlarına ingilis adları qoyublar, əvəzində azərbaycanca gözəl və hər kəsin anladığı adlar qoymaq olmazdımı? Türkiyə qardaş ölkədir, sevdiyimiz ölkədir, amma bizim dilimizin öz yazılış qaydaları, bəzi fərqli hərfləri, məsələn, "ə" hərfimiz varsa, söz olduğu kimi, həmin "ə" hərfi ilə yazılmalıdır. Belə deyilmi? Yəni, dilin qayğısına qalmaq lazım gəlir. Bu həm dövlətin, həm vətəndaşın, xüsusilə qərar qəbul edən şəxsin işidir, bir növ vəzifəsidir. Əks halda nə olur? Məktəbin zəifliyini küçə davam etdirir. Baxın, tələbələrimiz gəlirlər və yaxşı yazı yaza bilmirlər.Tələbəyə deyəndə ki, ərizə yaz, tərcümeyi - halını (həyat tarixcəni) yaz, görürsən ki, çoxu səhv yazır. Çünki məktəbdə dilə, xüsusilə yazıya çox az fikir verirlər.

İnkişaf edən, yaxşı yazan əsasən öz hesablarına inkişaf edib, mən belə düşünürəm. Bəzən deyirlər ki, filankəs filan məktəbdə yetişdi, sağ olsun o məktəb, o direktor və ya o müəllim. Yaxşı müəllimə eşq olsun, yaxşı direktora və yaxşı məktəbə afərin deməliyik. Xeyli yaxşı müəllim var, amma onlar çoxluğu təşkil etmirlər. Həmin fikri (yaxşıların az olmasını), təəssüf ki, direktorlara və məktəblərə daha da inamla aid etmək olar. Eyni məktəbdən fərqli-fərqli, müxtəlif səviyyəli adamlar gəlir. Burada ailənin və insanın, yəni şagirdin öz rolu çox böyükdür.

Dil dövlət qayğısı tələb edən şeydir. Məsələn, dövlətin qayğısı ilə indi Azərbaycan dilində çoxlu kitablar nəşr olunur (özəl bölmə də geri qalmır!). Bu çox yaxşıdır. Dünya ədəbiyyatının klassikləri çevrilir və nəşr olunur. Bunlar yaxşıdır və haqlı tənqidlə yanaşı yaxşı olanı da demək lazımdır. Başqa bir dil hadisəsinə fikir verin: son vaxtlar ingilis və rus dillərinə rəğbət artır, bu yaxşıdır, amma bu, Azərbaycan dilinin hesabına olmasın, mən onu deyirəm. Söhbət təkcə danışıq dilindən getmir. Uşaq 1-ci sinfə ingilis və rus dilində gedəndə, problem yalnız dilə münasibətdən ibarət deyil, prob-lem uşağın təfəkküründə, millətinə münasibətində özünü göstərə bilir (pis tərəfdən), uşaq öz folklorunu və musiqisini yaxşı başa düşə bilmir, çünki tədris prosesində ona ingilis, rus folkloru, mahnıları öyrədirlər.Yaxşı olar ki, insan öz mədəniyyətini, öz dilini öyrənməklə başlasın, sonra və ya ona paralel olaraq başqa dilləri və dünyanı öyrənsin, onda uşağın düşüncəsi və həyatı daha harmonik olar, mənim fikrim belədir.

Məktəbləri müqayisə etdikdə, dövlət məktəblərinin əksəriyyətində vəziyyət yaxşı deyil, müxtəlif problemlər var. Bu səbəbdən valideynlər xüsusi və yaxud özəl məktəb axtarırlar. Maraqlısı budur ki, bütün dünya bu vəziyyətdədir. Məsələn, İngiltərəni götürək. İngiltərədə seçilmiş orta ümumtəhsil dövlət məktəbləri var, onlara"Grammar schools"(Qrammatika məktəbləri) deyirlər. Onların keyfiyyəti çox yaxşıdı və 6-cı sinfi bitirmiş şagirdləri o məktəblərə imtahanla, müsabiqə yolu ilə götürürlər. Orada təhsil keyfiyyətli olmaqla bərabər həm də pulsuzdur. Amma, onların sayı çox azdır. Ümumiyyətlə, dövlət məktəblərinin sayı - hesabı yoxdur və xalq hesab edir ki, onların keyfiyyəti aşağıdır. Digər tərəfdən, özəl məktəblər var, hansı ki, təhsil haqları yüksəkdir,

bəzən çox yüksəkdir. London yaxınlığında Eton adlı məşhur bir məktəb (oğlanlar məktəbi) var, Britaniyanın çox məşhurları, o cümlədən 19 baş naziri (!) bu məktəbdə oxuyublar. İllik təhsil haqqı təqribən 35 min funtdur (pound;: təqribən 50 min ABŞ dolları). Amma insanlar pul verib uşaqlarını o məktəbə qoymağa çalışırlar...

Sovet vaxtı məktəblərin vəziyyəti pis deyildi, sovet məktəbləri yaxşı məktəblər hesab olunurdu. Bəli, indi məktəb sistemi çökmüş vəziyyətdə olmasa da, yaxşı vəziyyətdə də deyil. Elə-belə deyil, səbəbləri var - maddi və mənəvi, mühitin və dəyərlərin dəyişməsi...Valideyn məcburdur ki, yaxşı məktəb axtarsın. Mən valideynləri başa düşürəm. İndi yaxşı məktəb özəl məktəbdir. Özəl məktəb isə şagird cəlb etmək üçün deyir: sizə ingilis, rus dilində də, Azərbaycan dilində də keyfiyyətli təhsil verə bilərəm, hansını istəyirsən seç. Bu vəziyyəti əmələ gətirən uşaqlarını nüfuz və şöhrət üçün rus dili və ingilis dilində oxutmaq istəyən valideynlərin böyük istəyidir. Özləri ingiliscə və rusca bilməyən valideynlər uşağı bu dillərdə oxutmaq istəyirlər, evdə uşaqla valideyn arasında get-gedə ünsiyyət azalır, hər iki tərəf bilmir neyləsin. Bax, belə bir vəziyyət əmələ gəlir. Məndən bəzi valideynlərlər soruşurlar (xüsusilə uşaqlarını "Dünya"məktəbində oxutmaq istəyənlər): "Hamlet müəllim, hansı dili seçək, uşağı hansı sektora qoyaq?" Mən onlara Azərbaycan dilini məsləhət görürəm, Azərbaycan bölməsində oxuyanda da yaxşı ingilis dili öyrədirlər, çünki 2-ci dil ingilis dilidir. Rus dilini öyrənmək də çətin olmur, həm onu tədris edirik, həm rus dilli mühit var, Bakıda böyüyən uşaq rus dilini də, ingilis dilini də öyrənir. Gəlin uşaqlarımıza doğma və sağlam ruh bəxş edək, öz dilimizi yaxşı bilsinlər. Mədəniyyətimizi, ədəbiyyatımızı öyrənsinlər, cəmiyyət içində özlərini yaxşı hiss etsinlər. Onlara Şekspiri də, Puşkini də öyrədəcəyik. Dil öyrənmək böyük problem deyil, hərtərəfli insan kimi formalaşmaq isə ağır və mürəkkəb prosesdir.

**- "Xəzər"də Azərbaycan dilinin inkişafı üçün nələr edilir?**

- Gəl bir-bir sayaq. Birinci, burda hamı, yəni bütün tələbələr Azərbaycan dili dərsi keçirlər. Biz bu dərsə xüsusi fikir vermiş, onu müəyyən məqsəd, gözlənti əsasında qurmuşuq: Azərbaycan dilində gözəl yazmaq, tələbələrə yaxşı, savadlı yazmağı öyrətmək, gücü bu istiqamətə yönəltmək.Yazmağın da növləri var. Misal üçün, adi dəftərxana dili, qəzet dili,yaradıcı yazı, esse yazmaq, akademik yazı və sair. Bizim ingilis dili departmentimizdə (kafedramızda) bu yazı növləri ayrı-ayrı fənlər kimi tədris olunur. Bunları sintez edərək, azərbaycanca yazı fənni tərtib etmişik. Orta məktəb məzunlarının böyük əksəriyyəti savadlı yaza bilmirlər, bu baxımdan da bu yazı fənni çox mühümdür.

İkinci, "Xəzər" Azərbaycanda tək ali məktəbdir ki, "Azərbaycan ədəbiyyatı" icbari fənn kimi tədris proqramına daxil edilib, digər heç bir universitetdə *hamı üçün* Azərbaycan ədəbiyyatı dərsi yoxdur. Bu fənn tələbələrin dilini, düşüncəsini və zövqünü inkişaf etdirir, Azərbaycan mədəniyyətinin mühüm hissəsini anlamağa və qiymətləndirməyə kömək edir. Bu fənn üzrə mütləq oxu tələb olunur, məsələn, Nizaminin "Xosrov və Şirin"i, Füzulinin "Leyli və Məcnun"u, Nəsimi və Vaqifin şeirləri, M.F. Axundovun "Müsyö Jordan"ı, Cəfər Cabbarlının "Sevil"i, 20-ci əsr ədəbiyyatının seçilmiş əsərləri bu icbari oxu siyahısına daxildir. Orta məktəb məzunlarının çoxu bədii ədəbiyyatı az oxuyublar. Məktəbdə ədəbiyyat haqqında danışırlar, lakin ədəbi əsərlərin özünü əksər hallarda oxutmurlar. Biz isə burada ədəbiyyatın özünü oxutdururuq. Müasir ədəbiyyat da öyrədilir. Müasir yazıçıların adları çəkilir, bu halda kimi və hansı əsəri seçmək müəllimin öhdəsinə buraxılır. Məsələn, proq-

ramda Ramiz Rövşənin adı varsa (var), Ramiz Rövşənin hansı əsərini öyrədəcəyinə müəllim özü qərar verir.

**- Bəs Ramiz Rövşəndən sonrakı mərhələ? Ondan sonra da Azərbaycan ədəbiyyatı var axı...**

- Ramiz Rövşəndən sonrakı mərhələ yoxdur (*gülür*). Demək istəyirəm ki, ümumi Azərbaycan ədəbiyyatına aid bir semestrlik fənn hər şeyi əhatə edə bilməz. Bizim burada kitab klubumuz var. Tələbələr və müəllimlər gənc şairləri, yazıçıları dəvət eləyirlər, onlarla tanış olurlar. Gənc yazarların hamısı, təbii ki, tanınmırlar, onların arasında, şübhəsiz ki, istedadlılar var, amma kimlər ki ədəbiyyatda qalıblar, fənn onlardan danışır. Mədəniyyətin bütün sahələrində, o cümlədən ədəbiyyatda Renessans dövrü olur. C. Məmmədquluzadə, C. Cabbarlı, S. Vurğun, Üzeyir bəy, Qara Qarayev, Fikrət Əmirov kimi böyüklər vardı, o bir zirvə dövrü idi. O cür şeylər az-az olur, indiki və ya qarşıdakı qısa zamanda o cür böyüklərin yetişəcəyi, ümumiyyətlə desək, gözlənilmir. Amma, məlumdur ki, ədəbi proses heç vaxt dayanmır, yeni insanlar yetişir, ona da sözüm yoxdur, qoy onları da fərdi və könüllü şəkildə öyrənsinlər…

**- İndi maraqlı müəlliflər var: Aqşin Yenisey, Salam Sarvan, Seymur Baycan...**

- Mən bəzi yeni müəllifləri tanıyıram. Bilirsiniz niyə? Bu son bir neçə ildə milli kitab müsabiqəsi keçirilirdi. Mən orda münsiflər heyətinin üzvü olmuşam və hər dəfə final mərhələsinə gəlib çatmış son 10 əsəri oxumuşam. Mən oxuduğum hər əsər barədə özüm üçün qısa bir yazı yazmışdım, yəni onlarla əlaqədar bir keyfiyyət göstəriciləri sistemi fikirləşmişdim ki, əsərləri hansı meyarlara görə qiymətləndirdiyimi bilim (nə bilim, dili, süjeti, intriqası, bədii dəyəri və sair). Həm də müəllif məndən soruşanda nəyə görə mənə 10 maksimum baldan 8 vermisiniz, mənim ona izahım olsun. O ərəfədə tanımadığım yazarlarla tanış olmaq imkanı tapdım. Qabiliyyətlilər, yaxşı yazanlar var, amma yazıçılıq, şairlik belədir ki, o, inkişafa çox bağlıdır, hər yazan fərqli bir inkişaf yolu keçir (və hər yazan Molla Pənah olmur!). Çox adamlar var ki, gənc yaşlarında yaxşı görünürlər və sonra sönürlər. Bəzən də tərsinə, görürsən ki, yazıçı yavaş-yavaş başlayır, zəif başlayır, amma, get-gedə güclənir, oxucuların sevimlisinə çevrilir. Məsələn, ilk gəncliyində yazdığı şeirlərə baxanda S.Vurğunun böyük şair olacağı aydın görünmür. C.Cabbarlının ilk gənclik pyeslərinə baxanda görürsən ki, bu böyük yazıçı ola bilər. Doğrudan da belə oldu, 20 yaş ətrafında artıq klassik əsərlərini yazdı. S.Vurğun 25 yaşında yazırdı, çox görünmürdü, amma S.Vurğun nəhəng şair oldu.

**- İki il əvvəl demişdiz ki, Azərbaycan elmi dəhşətli dərəcədə zəifləyib, mədəniyyətin, təhsilin, hətta ziyalılığın zəifləməyinə səbəb elmin zəifləməsidi. Keçən müddət ərzində fikriniz hansı tərəfə dəyişib? Azərbaycan elmində nə baş verir?**

- Deyim: nə baş veribsə, ümumi vəziyyət ciddi surətdə dəyişməyib, xırda dəyişikliklər baş verib. Bir misal çəkim. Tehran Uniersitetinin yaxşı beynəlxalq jurnallarda (Thomson Reuters, Web of Science) çap etdiyi məqalə sayı Azərbaycan ali məktəblərinin (50!) və Milli Elmlər Akademiyasının birlikdə çap etdiyindən 5 dəfə artıqdır. Nə deyirsiniz buna? Başqa bir misala müraciət edək. Finlandiyanın əhalisi Azərbaycanın əhalisindən az qala iki dəfə azdır. Azərbaycan 10 ildə (1996-2005) yaxşı ("Web of Science" deyilən siyahıdan) jurnallarda 2010 məqalə çap etdirib, Finlandiya isə 86608! Rəqəmlər od tutub yandığı üçün sözlə də deyim: Azərbaycan iki min, Finlandiya eyni dövrdə səksən altı mindən artıq! Xahiş edirəm diqqətlə fikir verin, müqayisə-

olunmaz fərqə baxın. Bu, Azərbaycan elminin ağır vəziyyətindən xəbər vermirmi?! İslam ölkələrindən və Afrikadan da bizi utandıracaq çox misallar gətirə bilərdim…

**- Bu nədən irəli gəlir? Dünyada elm inkişaf edir, uçan kometaya cihazlar endirilir. Bu, sanki alimləri inkişafa ruhlandırmalıdı. Amma azərbaycanlı alim dinə meyl edir, mələyin uçma sürətini ölçür...**

- Azərbaycanda Sovet dövründə sanki elmi məktəblər yaranırdı. O vaxt da xeyli şişirtmələr vardı. Məsələn, Moskva universitetinin bir kafedrasının aldığı elmi nəticələr bütün Azərbaycan riyaziyyatçılarının aldığından güclü idi, şübhəsiz. Bunu demək lazımdır. Ancaq, yenə də, o vaxt insanlar Moskvaya (və ya Leninqrada, Novosibirskə,…) gedirdilər, oxuyub, elm öyrənib gəlirdilər. Elm adamının bir qədər nüfuzu var idi, maaşı var idi. Ona görə (həmçinin zamanın ruhuna görə) alim olmaq istəyənlər də çox idi. İndi isə elm Azərbaycanda nüfuzunu itirib. Hərçənd ki, içində elm yanğısı olmayan insanların bir hissəsi yenə də "mən alim olum, diplom alım" xülyası ilə yaşayırlar. Buna görə elmi dayazlıq (belə demək mümkünsə) və plagiat baş alıb gedir.

Mənim tanıdığım bir adam, bir elmlər namizədi deyir ki, bir ildə beş adama eyni mövzuda dissertasiya yazıram. Hərəsini 5% dəyişib (95% eyni qalır), adlarını dəyişib təqdim edirəm, hamısı uğurla (?) müdafiə edirlər. Azərbaycanda alim belə də yetişir. Elm isə fanatikləri sevir. Necə ki, bir qız bir oğlandan, bir oğlan bir qızdan ötrü dəli olur, necə deyərlər, ölür. Yaradıcılıq ehtirası qadın-kişi arasındakı sevgidən qat-qat böyükdür. Ondan dərin və ondan gözəl heç nə yoxdur. İnsan o aləmə vurulanda, onun içində olanda yazır, yaradır, xoşbəxt olur.

Biz indi "Xəzər"də bir qayda qoymuşuq: doktorant müdafiə etmək üçün dünyada qəbul olunmuş güclü bir jurnalda məqalə çap etdirməlidir. Doktoranturamızda oxuyan qabiliyyətli bir qız deyəndə ki, "bəlkə xaricdəki bir məqalə əvəzinə Azərbaycanda 3-4 məqalə çap etdirim?", mən, təbii ki, icazə vermədim. O düşüncə içində getdi. Yəqin ciddi düşündü, indi onun xaricdə mən istədiyim səviyyədə iki, ya üç məqaləsi çap olunub. İstedadın (və iradən) varsa, çalış ağır bir elmi problemin həllinə giriş, ağır, yəni böyük işə girəndə, o işi görməsən də, onun yanında, onun ətrafında həll edə bildiyin məsələ məzmunlu olacaq, sənə böyük impuls verəcək, səni tanıdacaq. Elmə daxil olma və orada məskən sala bilmə prinsipi belədir. Sonra o qız mənə danışdı ki, getdim Azərbaycanda da bir məqalə çap etdirmək istədim, soruşdum ki, bunu rəyə verəcəksinizmi (yaxşı jurnallarda olduğu kimi). Dedilər: nə rəy, rəy nədir, 30 manat verirsən, məqaləni növbəti nömrəyə salırıq. Bax bu cür məqalələr, bu cür müdafiələr olanda elm zəifləyir, kefsizləşir, yatağa düşür…

**- Hamlet müəllim, burdan çeynənmiş bir sual yaranır: niyə bizdə belədi?**

- Tək bizdə belə deyil. Bilirsiniz, Sovet İttifaqı dağıldı və çox şey dağıldı və ya dəyişdi, insanların dəyər verdikləri bir şeylər var idi, onlar dəyişdi. Sovet hökuməti insanların ayıbını örtmüşdü. Bir bənzətmə edək. Qar yağanda hər yer dümağ olur, qar altındakı bütün kələ-kötürlük örtülür. Sosialist üsul-idarəsi insanın pis niyyətlərinin qol-qanad açmasına çox imkan vermirdi. Cinayət işlətmək üçün meydan nisbətən azdı. Çünki insanlar imkan dairsində işlə təmin edilir, ev alır, maaş alır, oxudulurdu. İnsanlar olanlarla qane olur, fərqlənmək, irəli çıxmaq üçün, həmçinin özünü inamlı hiss etmək üçün elmlə, musiqi və ya incəsənətlə məşğul olurdular. Bunları

da hökumət qiymətləndirirdi. Şairin hər sətrinə pul verilirdi. Düzdür, şair də sistemi (socialist dəyərləri, rəhbərləri) təbliğ edirdi. İndi isə şair özü pul verir ki, onun kitabını çap etsinlər… Məqsədim sosializmi tərifləmək deyil, sadəcə indiki zəifliklərin nə üçün o zamanda başqa cür olduğunu izah edirəm; sosializmin də öz bəlaları vardı...

Bu sosializm sistemi çökəndə hər şey dəyişdi, viran oldu. Mənim amerikalı bir professor dostum Sovetlər dağılandan az keçmiş Azərbaycana gəlmişdi. Gəldi, gördü və təəssüratını çox gözəl ifadə etdi: indi mən başa düşürəm ki, Roma İmperiyası dağılanda vəziyyət necə olub. Sosializmin çökməsi ilə insanların acgözlüyü ortaya çıxdı; dediyim kimi, onlar vardı, amma üstüörtülü idi, kinetik deyil, potensial idi. Acgözlüyün pozitiv bir yanı da var, paradoksal səslənsə də: insanlar çalışırlar ki, inkişaf etsinlər, kef çəksinlər. Sovet hakimiyyəti özəl təşəbbüsü öldürmüşdü. Lakin acgözlük o biri tərəfə getdi, həddini aşdı və arada dəyərlər itdi, ədalət, insaf, humanizm və sairə arxa plana keçdi. Bu şəraitdə elmə maraq azalır, belə yerdə elm cücərmir.Yəni, daşın üstündə gül bitmir, bitsə də, yosun zad bitər, gülün münbit torpağı və suyu olmalıdır ki, o, cücərsin.

Amma, onu deyim ki, istənilən ən geridə qalmış cəmiyyətdə də həmişə parlaq insanlar olur. Həmişə şair olacaq, həmişə elmi sevən, ətrafı müəyyən yeniliklərlə təəccübləndirən insanlar da olacaq: onların şəraiti gözəl olmasa da, düşüncə və istəkləri gözəldir. Xəzər Universitetinin əsas hədəflərindən biri elmi fəaliyyəti canlandırmaq, yaxşı beynəlxalq mühit yaratmaqdır. Elm əyalətçi düşüncə ilə inkişaf etmir, elm dünya ilə bağlılıq tələb edir. Əlimizdən gələni edirik ki, bir sıra gənclər elm adamı kimi yetişsinlər.Tərpəniş var. Elmə gedən yolumuzun düzgün olması vacibdir, bu halda hədəfə yaxınlaşmaq ehtimalı böyüyür. Elmsiz güclü təhsil, güclü mədəniyyət, güclü dövlət olmur…

**- Siz Azərbaycanda dünyəvi və demokratik təhsil sistemi ilə fərqlənən bir universitetin rektorusuz. Bu səbəbdən hazırda dünyanın əsas mövzularından biri olan "Şarli Hebdo"ya (Charlie Hebdo`ya) hücum və karikaturaçıların qətli barədə fikrinizi öyrənmək istəyirəm. Dünyanı bir kənara qoysaq, Azərbaycanda iki münasibət oldu - hadisəni qınayanlar və söz azadlığını təhlükə kimi görənlər. İkinci, günahın karikaturaçılarda olduğunu deyənlər...**

- Baş verən hadisə sadə şey deyil, faciədir, onun mahiyyətini misallarla izah etməyə çalışacam.Terror varsa, insan ölürsə, onu heç cürə əsaslandırmaq olmaz ki, bu doğru işdir, terrora uğrayan və terrorçu kim olursa olsun. Sən gedib adam öldürərsənmi? Sən və mən də müsəlmanıq, Hebdo`nu niyə biz - sən, ya mən gedib öldürmədik? Niyə Hebdo`nu yaxında, Parisdə və ya onun ətrafında yaşayan digər müsəlmanlar deyil, həmin şəxs öldürdü? Karikaturaçının pis hərəkət etdiyini, müsəlmanların hissi ilə oynadığını biz də bilirdik, onunla biz də barışmırdıq, amma gedib Hebdo`nu öldürmək barədə düşünmürdük. Ürəyimizdə onu qınayırdıq, "ay vicdansız, sən niyə belə edirsən?" deyirdik, amma gedib öldürmürdük. İnsan öldürmək dəhşətli bir şeydir. Ondan böyük cinayət yoxdur. Bu səbəbdən terrorçuları, şübhəsiz ki, qınamaq lazımdır. Bu işin bir tərəfi.

Bu qınamaq məsələsi aydın oldu, amma məsələ tam bitmədi, bir şey baş veribsə, onun səbəblərini də anlamaq və təhlil etmək lazımdır. Niyə həyatda belə şeylərlə rastlaşırıq? Bu iş niyə baş verdi? Mən söz azadlığının nə olduğunu bilirəm, bu böyük nemətdir. Ümumiyyətlə, azadlıq gözəl şeydir. İnsan azad olmalıdır, insan azad olmasa, xoşbəxt ola bilmir, özünə və ətrafdakılara tam fayda verə bilmir. Lakin baş verən hadisəni təkcə söz azadlığı ilə izah etmək də birtərəfli yanaşmadır. Söz azadlığı və ümumiyyətlə, azadlıq "mən hər şey edə bilərəm" demək deyil.

Məsələn, insan, kişi ya qadın küçədə lüt gəzə bilərmi? Bilməz. Niyə? Əgər insan azadsa, qoy kefi istədiyi kimi geyinsin və ya kefi istəyəndə çılpaq gəzsin (xüsusilə bürkülü havada). Bir film vardı, adı yadımdan çıxıb, sən kino sənətini yaxşı bilirsən, orada filmin sonunda insanlar tam soyunub düzülüb gedirlər, ən maraqlı dəb/moda nümayişi təsiri yaradaraq… Lakin, bilirik ki, insan bunu etməməlidir, insan bu şəkildə yaranan azadlıq hissini boğmalıdır (özü!). Çünki bir cəmiyyət var, biz onun üzvüyük, cəmiyyət qarşısında öhdəliklərimiz, məsuliyyətimiz var. Cəmiyyəti incitmək olmaz. Cəmiyyətin mərkəzi dəyərlərini məhv edib onu pis vəziyyətə salmaq, onu ələ salmaq olmaz. Mərkəzi dəyərlər pozulsa, mənəviyyatın tənəzzülü ilə iş qəti bitməz, cəmiyyətin təhlükəsizliyi aradan qalxar, cəmiyyət məhv olmaq dərəcəsinə gələr… Digər bir misal: geylər parad keçirirlər, onlar da insandırlar, necə bilirsən, parad keçirmələri yaxşı şeydirmi? Məgər bu özünü cəmiyyətə qarşı qoymaq deyilmi? Cəmiyyətə meydan oxumaq deyilmi? Gey ola bilərsən, ol. Amma bunu niyə xüsusi nümayişə çevirirsən? Nümayiş etdirmək o deməkdir ki, mən sizdən yaxşıyam.

**- Niyə məhz "mən sizdən yaxşıyam"? Buna, sadəcə, öz yaşamaq hüququnu tələb etmək kimi baxa bilmərikmi?**

- Getsin yaşasın, ona kim nə deyir ki?! Yəni adam gedib o tərəfdə durur, homoseksualdır, öz həyatını yaşayır, sən ona toxunmursan, heç nə demirsən, o da sənə toxunmur. Buna kim nə deyə bilər?! Amma bilə-bilə cəmiyyətin bəzi dəyərlərinə meydan oxumaq yaxşı şey deyil (əlbəttə ki, bəzi inanclar və adətlərlə barışmaya bilərsən, bir sıra hallarda barışmırıq və yəqin ki, doğru edirik). Birdə var ki, küçəyə çıxıb, homoseksuallığı təbliğ edirlər, nümayiş bu deməkdir, ümumiyyətlə, hər nümayiş - siyasi, ictimai, dini bə sair - ətrafdakılara meydan oxumaqdır, barışmazlığı, mübarizəni göstərir. Düşünürəm ki, geylərin bilə-bilə nümayişə çıxmaları, cəmiyyətə acıq verməleri, cəmiyyəti bilə-bilə qıcıqlandırmaları yaxşı iş deyil və yaxşı nəticələnməyə bilər.

Daha bir misal. Fərz edək ki, biri ateistdir. Sağ olsun, kimin nə işi var, biri dindar olar, biri də ateist. Lakin, ateist mömin adama, qəlbən dinə inanan və dini dəyərləri yüksək tutan adama hücum etməyə, onun Allahına, peyğəmbərinə gülməyə haqqı varmı? Mütləq azadlıq baxımından, yəqin ki, ixtiyarı var. Amma insaniyyət baxımından, bir insanın hisslərinə toxunmaqla onu təhqir etmək (mömin bunu təhqir kimi qəbul edəcək) haqqı varmı bu ateistin? O qədər yaşlı adam var, nənəmiz, babamız, qonşumuz - dinə inanıb, dində özünə rahatlıq tapıb. Ateist öz ateistliyində qalsın, amma möminin hissləri ilə oynamasın, onu rahatsız etməsin. Və əlbəttə ki, möminin də ateistə hücum etməyə haqqı yoxdur, təəssüf ki, cəmiyyətimizdə belə hallar var. İnsanların düşüncəsinə qarşı hücum etmək olmaz, düşüncə azaddır, yaxşı və pis düşüncə yoxdur, yaxşı və pis əməl var.

Məgər karikaturaçı Məhəmməd Peyğəmbərin karikaturasını çəkməklə milyonlarla insanları təhqir etdiyini anlamırdımı, bilmirdimi? Əlbəttə, bilirdi. Belə çıxır k, bunu bilə-bilə, müsəlmanları ələ salmaq, onları təhqir etmək üçün edirdi, hər halda nəticənin buna gətirdiyi şübhəsizdir. Bu onun səhvidir. Küçədə çılpaq gəzən ətrafdakıları təhqir edir. Yüz milyonlarla insanların hissləri ilə oynayanda, onları tənqid edəndə alçaldılmış və təhqir olunmuşlar içində qisasçılıq baş qaldırır və bu yüz milyonlarla müsəlmanların içində biri və ya onbeşi çılğınlaşır, içini gəmirən hirs nifrətə çevrilir və qisas almaq fikrinə düşür. Nə olardı insanları bu vəziyyətə salmasaydılar?! Bax, mən təhlil etdim. Birinci onu dedim ki, adam öldürmək olmaz, öldürmək dəhşətli bir

şeydir, heyvani hissdir. Karikaturadı çəkib, əclafdır, rədd olsun, qəhr olsun de, amma o insanı öldürmə, öldürməklə sən cinayətkar olursan. Amma, izah etdim ki, yüz milyonlarla insanın inancına meydan oxumaq, həyasızcasına hücum etmək, onları təhqir etmək yaxşı deyil, şərəfsiz bir işdir. Bunun adını söz azadlığı qoyursan, bəs bunun ağrı-acı verəcəyini, qeyri-insani nəticəni (insanların dərindən təhqir edilməsini deyirəm) niyə nəzərə almırsan?Axı, tərəzinin iki gözü var, hansının daha ağır olduğunu görmürsənmi?

Sonuncu misal. Bir qafqazlının anasına söysən, o, özünü dəhşətli dərəcədə təhqir olunmuş sayar və qayıdıb səni vurar, bir dəfə də söysən səni möhkəm döyər, davam etsən, öldürə bilər. Öldürməklə çox pis iş görər, öz həyatını məhv edər. Amma onu ağıldan çıxaran oldu. Digər tərəfdən, bir rusun anasına söyərsən, bu adi şey kimi qəbul edilər, qan düşməz. Ağıllı adam bunları nəzərə almalıdır...

**- Bu hadisəyə Aydın Talibzadə "Avropa daha çox birləşdikcə" adlı məqalə ilə münasibət bildirib və orda baş verənlərin alt qatında dayanan səbəblərdən biri kimi Bolonya sistemini göstərib. O, bu sistemin əslində Avropanı birləşdirmək üçün yaradıldığını, digər insanlara, qeyri-avropalıya qarşı rasizmi təbliğ etdiyini bildirir. Doğrudanmı, Bolonya sistemi bu qədər təhlükəlidir?**

- Aydın müəllimin birinci fikri ilə tamamilə razıyam. Bolonya sistemi Avropanı birləşdirmək, bütövləşdirmək üçün düşünülmüş mexanizmlərdən biridir. 1995-ci ildən başlayaraq mən bu barədə çox yazmışam (Azərbaycan türkcəsində və ingiliscə). Bir vaxtlar mən hay - küy qaldırmışdım ki, Azərbaycan, deyəsən, Bologna (belə yazılır və Bolonya kimi tələffüz olunur) prosesini unudub, bu barədə düşünmür. Avropa Şurası Azərbaycandan bir məruzə istədi, "Country Report" deyirlər, yəni, Azərbaycan təhsilinin cari vəziyyəti və problemlərini şərh etmək və onları Bologna sisteminin tələbləri baxımından müqayisəli təhlil etmək lazım idi. Bunu mən hazırlamış və məruzə etmişəm. 2005-ci ildə təhsil naziri Misir Mərdanovla birlikdə Norveçə getdik. Orada Azərbaycan rəsmi olaraq Bologna Prosesinə qoşuldu. Yəni, başdan bu məsələnin içində olmuşam. Bəli, Bologna Avropanı birləşdirmək üçün meydana çıxan cürbəcür proqramlardan biridir. Məsələn, Avropa Birliyi ölkələri arasında gediş-gəlişin açıq, vizasız olması, Şengen vizası ilə Avropaya gələnlərin tam Avropa Birliyi ölkələrinə gedə bilməsi və ya vahid pulun – avro`nun daxil edilməsi bütövləşmə yolunda atılan addımlardır.

Avropa ali təhsil sahəsində də gücünü birləşdirmək istəyirdi və birləşdirmək üçün bir model lazım idi. Məsələn, Almaniyanın modelini Fransa və bir sıra digər ölkələr, Fransanın modelini Almaniya və bəzi digər ölkələr istəməyəcəkdi. Ortaq ali təhsil məkanı qurmaq üçün Avropa ölkələri Amerika modeli əsasında bir sistem irəli sürdülər (bunu açıq deməsələr də). Tələbələrin cari vəziyyətini ölçən çevik kredit yığma sistemi işə salındı; hər fənnin saatla müəyyən bağlılığı olan kredit adlı çəkisi daxil edilir (deyək ki, bir fənn 6 kreditlikdir; bu fənni uğurla imtahan verən 6 kredit qazanmış olur). Tələbə seçməli dərsləri də nəzərə almaqla öz trayektoriyası ilə irəliləyir, məzun olmaq üçün lazım gələn fənnləri oxuyur və lazımi sayda krediti yığır. Üzv ölkələr arasındakı bu anlaşma, bu ahəngdarlıq vahid Avropa sisteminə çevrildi, bunu Avropa Ali Təhsil Məkanı adlandırdılar. Bu anlaşma Avropanın ən qədim universiteti qurulmuş şəhərdə - Bologna`da qərara alındığı üçün ona Bologna Prosesi dedilər. Bu sistem tələbə mübadiləsini daha effektli edir, misal üçün, İtaliyadan bir tələbə Almaniyaya

gedəndə bu tələbənin cari vəziyyəti onun İtaliyada topladığı kreditlərlə ölçülür və o, Almaniyada digər fənləri oxuyaraq çatışmayan kreditləri yığmaqla məşğul olur.

Avropanın Ali Təhsil Məkanının yaradılmasının rasizmlə heç bir əlaqəsi yoxdur. Bologna Prosesinə qoşulmaq könüllüdür, qoşulduqdan sonra da hər ölkə bir cür islahat aparır, özü istədiyi kimi. Qarşıya qoyulan əsas məsələ təhsilin keyfiyyətini qaldırmaqdır və bu yolda səyləri birləşdirməkdir. Ölkələrin ali təhsil sistemləri arasında xeyli yaxınlıq əmələ gəlir. Heç kim bizim mənəvi dəyərlərimizə hücum etmir. Avropa Birliyinin üzvü olmayan çox ölkələr, o cümlədən Azərbaycan Bologna Prosesindən bəhrələnmək imkanı əldə etdi. Avropa Birliyi ətrafdakı ölkələrin təhsil sisteminin inkişafı üçün, qonşular arasında tələbə və müəllim mübadiləsi üçün böyük xərc çəkir. Məsələn, indi Azərbaycandan Tempus və Erasmus adlı proqramlar vasitəsilə Avropa universitetlərinə müəllim və tələbə göndəririk və onlar da bizə, Xəzər Universitetinə gəlirlər, dediyim kimi, bunu Avropa maliyyələşdirir. Boloğna prosesinin rasizmə heç bir dəxli yoxdur. Mənə rasizmin artmasının səbəbini araşdırmaq təklif olunsa, çox səbəbləri götür-qoy edərdim, amma heç vaxt Bologna Prosesi yadıma düşməzdi. Heç dəxli var? Əksinə, Bologna sistemi münasibətlərin daha ahəngdar olmasına kömək edir.

**- Bu sistem Azərbaycanda necə, özünü doğruldurmu?**

- Deyim ki, Bologna Prosesi ali təhsilimizdə dəhşətli dərəcədə dəyişiklik elədi, bu doğru olmazdı. Vacib olan Bologna deyil. Bologna bir modeldir. Keyfiyyət Bolognasız da əldə edilə bilər, Bologna ilə də keyfiyyətsiz təhsil verilə bilir (və verilir). Biz başlanğıcdan Xəzər Universitetinin təhsil modelini dünyanın ən qabaqcıl ali təhsil ölkəsi sayılan ABŞ sisteminə uyğun qurduq, yəni, mən belə düşündüm və həmfikirlərimlə birlikdə 1991-92-ci illərdə modeli qurmağa başladıq, 1995-də ona tam keçdik. ABŞ-ın ali təhsil sistemi çox çevikdir, Türkiyədə bunu tətbiq edirdilər və Avropanın da bu işə marağı görünürdü. 1995-ci ildən mən bizim "Xəzər Xəbər" dərgisində kredit sisteminin mahiyyəti və onun tətbiqi haqqında məqalələr yazırdım, Bologna Sistemi isə neçə illər sonra başlayacaq və Azərbacan ona 2005-ci ildə qoşulacaqdı.

Amma, yenə deyirəm, Bologna öz yerində, əsas məqsəd keyfiyyətdir, keyfiyyət əldə etməkdir. Məsələn, 1810-cu ildə Humboldt Berlin Universitetinin rektoru oldu.O belə bir fikir irəli sürdü: yaxşı unversitet ona deyilir ki, güclü alimləri işə cəlb edirsən və onlara deyirsən ki, tələbəni yetişdir, necə istəyirsən o cür et, sərbəstsən. Alimə nə yol göstərəcəksən?! Alimə (və universitetə) sərbəstlik vermək lazımdır. Məsələn, yuxarıdan tədris proqramlarını göndərsinlər, desinlər ki, bu proqram üzrə dərs deyin, mən bunun tam əleyhinəyəm. Birincisi, ali məktəbdəki güclü alimlər qrupu nəyi və necə oxutmağı hər hansı digər adamlardan və ya təşkilatlardan daha yaxşı bilir. İkincisi, tədris proqramları hər il dəyişməlidir, baxmalıyıq ki, təzə nə meyllər var, qabaqcıl şirkətlərə nə cür mütəxəssis lazımdır? Texnologiya dəyişdisə, deməli uyğun fənn təftiş olunmalıdır, ola bilər bir fənn köhnəldi, onu yenisi ilə əvəz etmək lazımdır. Bunları tədris proqramlarında nəzərə aldıqda məzun daha tez və daha yaxşı maaşla iş tapar. Məni Quran ayəsi kimi dəyişməz proqramla işləməyə məcbur etsələr, keyfiyyət aşağı düşər. Deməli, proqramı biz özümüz düzəltməliyik, dünya təcrübəsini və dediyim digər amilləri nəzərə almaqla. Əslində, lazım gəlsə, biz tədris proqramı hazırlayıb hökumətə göndərə bilərik, hökumət bizə yox.

Mən həmişə bu fikirdəyəm ki, konservativ meyllərə qarşı ciddi durmaq lazımdır. Amma, onu da demək lazımdır ki, bəzi ali məktəblər nazirliyə yalvarırlar ki, bizə dəqiq tədris planı göndərin (?).

**- Hamlet müəllim, belə deyirsiniz ki, yuxarıdan göndərilən tədris proqramlarını qəbul etmirsiniz. Bəs bu halda konflikt yaranmırmı?**

- Böyük konflikt yaranmır, mənim təcrübəm belə deyir. Universitet quruculuğuna başlayandan bəri nəyi düzgün hesab etmişəmsə, onu həyata keçirməyə çalışmışam. Düzgün deyəndə də, boş fantaziya qurmamışam ki... Dünya təcrübəsini öyrənmişəm, Avropaya, Amerikaya baxmışam, müqayisə etmişəm, baxmışam ki, Azərbaycanda bunu hansı formada etmək lazımdır ki, ən yaxşı olsun. Əlbəttə, əvvəlcə mənə deyirdilər ki, xüsusən də nazirlikdə, bu nə fokusdu çıxarırsan, ölkənin qanunları var, hamı kimi sən də onlara əməl et. Mən də demişəm ki, o halda yeni ali məktəbi yaratmağa nə ehtiyac var idi?! İcazə verin burada yeni bir eksperiment edək, yeni bir model düzəldək. Hamı bir-biri kimi etsə, yenilik olmaz, durğunluq əmələ gələr. Baxın, Azərbaycan Bologna sisteminə qoşulanda Azərbaycandakı çox universitetlərin dekanları, prorektorları, bəzən də rektorları bizim təcrübəmizdən, o cümlədən kredit sistemimizdən bəhrələndilər.

Mütəxəssis, lider öz fikrini düzgün izah edəndə, əsaslandıranda, fikrinin üstündə duranda əvvəl axır onu başa düşürlər. Çünki yuxarıdakılar özləri bu fikrin doğru olduğunu yəqin edirlər. Hakimiyyətdə oturanlar düşmən deyillər ki, onlar da bu ölkənin vətəndaşıdırlar və Azərbaycanın yaxşı olmasını istəyirlər.

Başqa bir şey də deyim. İrəli getmək və yenilik etmək üçün mövcud qaydaları pozmaq lazım gəlir (bundan heç kimə zərər dəymirsə). Həmişə mövcud qaydaya tabe olsan, yeni addım ata bilməzsən, bu qaydanı sındırmalısan, amma yaxşı mənada sındırmalısan. Mənim bir rübaim var:

Qayda yaradanam, qayda pozanam,
Sufiyəm, dərvişəm, dəli ozanam.
Şairlik sevdası yoxdu başımda,
Məhəbbət coşanda şeir yazanam.

Əgər sənin geniş mənada məhəbbətin coşubsa, onu söndürmə. Qaydaları poz, maneələri aradan götür və yeni qaydalar yarat. Qaydanı pozub anarxiya yaratmırsan ki, yeni qayda yaradırsan! Sonra deyirsən: bu yeni qayda gözəldir, icazə verin bu qayda ilə davam edim. Pozarkən icazə istəmirsən, pozub yaxşı nəticə alandan sonra sülh yaradırsan. Sonra digərləri də bu yeni qaydadan istifadə edə bilərlər.

**- Və sonda məni maraqlandıran sual. Universitetin nəzdində film-animasiya mərkəzi yaradacağınızı demişdiniz.Bu layihənin taleyi necə oldu?**

- Animasiya mərkəzini yaratmışıq. Hətta ola bilsin, bununla bağlı ixtisas üzrə tələbə qəbulu da aparacağıq. Yavaş-yavaş bu sahəyə daxil olmaq istəyirik. Dünyanın hər yerində tərəfdaşlarımız var, onları da bu sahənin inkişafına cəlb etmək fikrimiz var. Gərəkli texnika və cihazlar almışıq. Bu işi bilənlər, maraq göstərənlər və məşğul olmaq istəyənlər varsa, müraciət etsinlər, məmnuniyyətlə birlikdə işləmək istərdik.

**Aygün Aslanlı,**
*Xeber365.com*